# AZƏRİQAZBANK SƏHMDAR İNVESTİSİYA BANKI

## 30 iyun 2008-ci il tarixinə

## Yığcam Aralıq Maliyyə Məlumatları və Təhlil Hesabatı

# MÜNDƏRİCAT

TƏHLİL ÜZRƏ RƏY

YIĞCAM ARALIQ MALİYYƏ MƏLUMATLARI

Yığcam Aralıq Balans Hesabatı ........ 1
Yığcam Aralıq Mənfəət və Zərər Hesabatı ........ 2
Yığcam Aralıq Səhmdar Kapitalında Dəyişikliklər Hesabatı ........ 3
Yığcam Aralıq Pul Vəsaitlərinin Hərəkəti Hesabatı ........ 4

Yığcam Aralıq Maliyyə Məlumatları üzrə Qeydlər

1 Giriş ........ 5
2 Bankın Əməliyyat Mühiti ........ 5
3 Yığcam Aralıq Maliyyə Məlumatlarının Tərtib Edilməsinin Əsas Prinsipləri ........ 6
4 Uçot Siyasəti və Əhəmiyyətli Mühasibat Təxminləri və Mülahizələri ........ 7
5 Pul Vəsaitləri və Onların Ekvivalentləri ........ 10
6 Müştərilərə Verilmiş Kreditlər və Avanslar ........ 11
7 Digər Banklara Ödəniləcək Vəsaitlər ........ 12
8 Müştəri Hesabları ........ 12
9 Dövlət və Beynəlxalq Maliyyə Təşkilatlarından Alınmış Borc Vəsaitləri ........ 13
10 Nizamnamə Kapitalı ........ 14
11 Faiz Gəlirləri və Xərcləri ........ 15
12 Haqq və Komissiya Gəlirləri və Xərcləri ........ 15
13 İnzibati və Digər Əməliyyat Xərcləri ........ 16
14 Dividendlər ........ 16
15 Seqmentlər üzrə Təhlil ........ 17
16 Maliyyə Risklərinin İdarə Edilməsi ........ 19
17 Kapitalın İdarə Edilməsi ........ 20
18 Təəhhüdlər və Şərti Öhdəliklər ........ 22
19 Əlaqəli Tərəflərlə Əməliyyatlar ........ 23
20 Hesabat Tarixindən Sonra Baş Vermiş Hadisələr ........ 26

PRICEWATERHOUSECOOPERS

**PricewaterhouseCoopers**
**Audit Azerbaijan LLC**
The Landmark Office Plaza III
12th floor, 96 Nizami Street
Baku AZ 1010, Azerbaijan
Telephone [994] 12 497 25 15
Facsimile [994] 12 497 74 11
www.pwc.com

## TƏHLİL ÜZRƏ RƏY

Azəriqazbank Səhmdar İnvestisiya Bankının İdarə Heyətinə:

*Giriş*
Biz, Azəriqazbank Səhmdar İnvestisiya Bankının ("Bank") 30 iyun 2008-ci il tarixinə təqdim edilən yığcam aralıq balans hesabatı və həmin tarixdə tamamlanan altı aylıq dövr üzrə yığcam aralıq mənfəət və zərər hesabatı, səhmdar kapitalında dəyişikliklər hesabatı və pul vəsaitlərinin hərəkəti hesabatının təhlilini apardıq. Hazırkı yığcam aralıq maliyyə məlumatlarının 34 saylı "Aralıq Maliyyə Hesabatları" Beynəlxalq Mühasibat Standartına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə Rəhbərlik məsuliyyət daşıyır. Bizim məsuliyyətimiz apardığımız təhlilə əsasən hazırkı yığcam aralıq maliyyə məlumatlarına dair rəy bildirməkdir.

*Təhlilin həcmi*
Biz təhlilimizi 2410 saylı "Müəssisənin Müstəqil Auditoru tərəfindən həyata keçirilən Aralıq Maliyyə Hesabatlarının Təhlili" Təhlil Prosedurları üzrə Beynəlxalq Standarta uyğun olaraq apardıq. Aralıq maliyyə məlumatlarının təhlili başlıca olaraq, maliyyə və uçot məsələləri üzrə məsuliyyət daşıyan işçilər ilə sorğuların aparılması, eləcə də analitik və digər təhlil prosedurlarının yerinə yetirilməsindən ibarətdir. Təhlilin həcmi Beynəlxalq Audit Standartlarına uyğun olaraq həyata keçirilən audit yoxlamasının həcmindən əhəmiyyətli dərəcədə azdır və müvafiq olaraq audit zamanı müəyyən edilə biləcək bütün əhəmiyyətli məsələlər haqqında məlumat əldə edəcəyimizə dair əminlik əldə etməyimizə imkan yaratmır. Müvafiq olaraq biz auditor rəyi bildirmirik.

*Nəticə*
Biz təhlil zamanı yığcam aralıq maliyyə məlumatlarının bütün əhəmiyyətli aspektlər baxımından 34 saylı "Aralıq Maliyyə Hesabatları" Beynəlxalq Mühasibat Standartına uyğun olaraq tərtib edilməməsinə əsas verən heç nə aşkar etmədik.

PricewaterhouseCoopers Audit Azerbaijan LLC

PraysvoterhausKupers Audit Azərbaycan MMC
Bakı, Azərbaycan Respublikası
5 dekabr 2008-ci il

The firm is an authorised licensee of the tradename and logo of PricewaterhouseCoopers.

| *Min Azərbaycan Manatı ilə* | Qeyd | 30 iyun 2008 | 31 dekabr 2007 |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 5 | 26,048 | 24,305 |
| ARMB-də yerləşdirilmiş məcburi ehtiyatlar | | 6,083 | 4,626 |
| Digər banklardan alınacaq vəsaitlər | | 4,386 | 2,043 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 6 | 140,583 | 107,866 |
| Satıla bilən investisiya kağızları | | 514 | 386 |
| Assosiasiya olunmuş müəssisələrə investisiya qoyuluşu | | 287 | 296 |
| Binalar və avadanlıqlar | | 15,066 | 9,402 |
| Proqram təminatı və lisenziyalar | | 290 | 275 |
| Cari mənfəət vergisi üzrə qabaqcadan ödəmələr | | - | 375 |
| Digər maliyyə aktivləri | | 285 | 233 |
| Digər aktivlər | | 1,958 | 6,971 |
| **CƏMİ AKTİVLƏR** | | **195,500** | **156,778** |
| **PASSİVLƏR** | | | |
| Digər banklara ödəniləcək vəsaitlər | 7 | 12,637 | 12,902 |
| Müştəri hesabları | 8 | 120,257 | 96,115 |
| Buraxılmış borc qiymətli kağızları | | 3,276 | 3,295 |
| Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitləri | 9 | 28,621 | 24,601 |
| Təxirə salınmış vergi öhdəliyi | | 243 | 275 |
| Cari vergi öhdəliyi | | 208 | - |
| Digər maliyyə passivləri | | 910 | 774 |
| Digər passivlər | | 765 | 472 |
| **CƏMİ PASSİVLƏR** | | **166,917** | **138,434** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 10 | 15,000 | 12,000 |
| Səhm mükafatı | 10 | 6,860 | - |
| Bölüşdürülməmiş mənfəət | | 5,153 | 4,863 |
| Digər ehtiyatlar | | 1,570 | 1,481 |
| **CƏMİ KAPİTAL** | | **28,583** | **18,344** |
| **CƏMİ PASSİVLƏR VƏ KAPİTAL** | | **195,500** | **156,778** |

5 dekabr 2008-ci il tarixində İdarə Heyəti tərəfindən təsdiqlənmiş və onun adından imzalanmışdır.

Cənab Azər Mövsümov
İdarə Heyətinin Sədri

Xanım Səkinə Xələfova
Maliyyə Nəzarəti Departamentinin Direktoru

| *Min Azərbaycan Manatı ilə* | **Qeyd** | **30 iyun 2008-ci il tarixində tamamlanan altı aylıq dövr (audit olunmamış)** | **30 iyun 2007-ci il tarixində tamamlanan altı aylıq dövr (audit olunmamış)** |
|---|---|---|---|
| Faiz gəlirləri | 11 | 12,104 | 6,131 |
| Faiz xərcləri | 11 | (6,084) | (2,522) |
| **Xalis faiz gəlirləri** | | **6,020** | **3,609** |
| Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat | 6 | (1,544) | (801) |
| **Ehtiyat ayırmalarından sonra xalis faiz gəlirləri** | | **4,476** | **2,808** |
| Haqq və komissiya gəlirləri | 12 | 3,469 | 2,204 |
| Haqq və komissiya xərcləri | 12 | (1,179) | (674) |
| Xarici valyuta ilə əməliyyatlar üzrə gəlir – zərər çıxılmaqla | | 826 | 459 |
| Xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə gəlir – zərər çıxılmaqla/(zərər – gəlir çıxılmaqla) | | (49) | 47 |
| Digər əməliyyat gəlirləri | | 62 | 29 |
| İnzibati və digər əməliyyat xərcləri | | (4,715) | (2,778) |
| Assosiasiya olunmuş müəssisələrin maliyyə nəticələrində pay | | (11) | 9 |
| **Vergidən əvvəlki mənfəət** | | **2,879** | **2,104** |
| Mənfəət vergisi xərci | | (674) | (495) |
| **Dövr üzrə mənfəət** | | **2,205** | **1,609** |
| **İl ərzində Bankın səhmdarlarına düşən mənfəət üçün səhm üzrə mənfəət (AZN ilə):** | | | |
| - Əsas | | 0.34 | 0.37 |
| - Sulandırılmış | | - | 0.34 |

| *Min Azərbaycan Manatı ilə* | Qeyd | Nizamnamə kapitalı | Səhm mükafatı | Digər ehtiyatlar | Bölüşdü-rülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|---|---|
| **1 yanvar 2007-ci il tarixinə qalıq** | | **9,000** | **-** | **1,414** | **2,806** | **13,220** |
| Satıla bilən investisiya qiymətli kağızları üzrə ədalətli dəyər gəliri – zərər çıxılmaqla | | - | - | 70 | - | 70 |
| Kapitalda qeydə alınmış mənfəət vergisi | | - | - | (15) | - | (15) |
| Binalar və avadanlıqlar üzrə realizasiya olunmuş yenidən qiymətləndirmə ehtiyatı | | - | - | (20) | 20 | - |
| Birbaşa olaraq kapitalda qeydə alınmış xalis mənfəət | | - | - | 35 | 20 | 55 |
| Dövr üzrə mənfəət | | - | - | - | 1,609 | 1,609 |
| Dövr üzrə cəmi mənfəət | | - | - | 35 | 1,629 | 1,664 |
| Səhm emissiyası | | 1,000 | - | - | - | 1,000 |
| Elan edilmiş dividendlər | | - | - | - | (1,356) | (1,356) |
| **30 iyun 2007-ci il tarixinə qalıq (audit olunmamış)** | | **10,000** | - | **1,449** | **3,079** | **14,528** |
| Satıla bilən investisiya qiymətli kağızları üzrə ədalətli dəyər gəliri – zərər çıxılmaqla | | - | - | 68 | - | 68 |
| Kapitalda qeydə alınmış mənfəət vergisi | | - | - | (15) | - | (15) |
| Binalar və avadanlıqlar üzrə realizasiya olunmuş yenidən qiymətləndirmə ehtiyatı | | - | - | (21) | 21 | - |
| Birbaşa olaraq kapitalda qeydə alınmış xalis mənfəət | | - | - | 32 | 21 | 53 |
| Dövr üzrə mənfəət | | - | - | - | 1,808 | 1,808 |
| Dövr üzrə cəmi mənfəət | | - | - | 32 | 1,829 | 1,861 |
| Səhm emissiyası | | 2,000 | - | - | - | 2,000 |
| Elan edilmiş dividendlər | | - | - | - | (45) | (45) |
| **31 dekabr 2007-ci il tarixinə qalıq** | | **12,000** | **-** | **1,481** | **4,863** | **18,344** |
| Satıla bilən investisiya qiymətli kağızları üzrə ədalətli dəyər gəliri – zərər çıxılmaqla | | - | - | 141 | - | 141 |
| Kapitalda qeydə alınmış mənfəət vergisi | | - | - | (31) | - | (31) |
| Binalar və avadanlıqlar üzrə realizasiya olunmuş yenidən qiymətləndirmə ehtiyatı | | - | - | (21) | 21 | - |
| Birbaşa olaraq kapitalda qeydə alınmış xalis mənfəət | | - | - | 89 | 21 | 110 |
| Dövr üzrə mənfəət | | - | - | - | 2,205 | 2,205 |
| Dövr üzrə cəmi mənfəət (audit olunmamış) | | - | - | 89 | 2,226 | 2,315 |
| Səhm emissiyası | 10 | 3,000 | - | - | - | 3,000 |
| Səhm mükafatı | 10 | - | 6,860 | - | - | 6,860 |
| Elan edilmiş dividendlər | 14 | - | - | - | (1,936) | (1,936) |
| **30 iyun 2008-ci il tarixinə qalıq (audit olunmamış)** | | **15,000** | **6,860** | **1,570** | **5,153** | **28,583** |

| *Min Azərbaycan Manatı ilə* | Qeyd | 30 iyun 2008-ci il tarixində tamamlanan altı aylıq dövr (audit olunmamış) | 30 iyun 2007-ci il tarixində tamamlanan altı aylıq dövr (audit olunmamış) |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Alınmış faizlər | | 11,900 | 5,330 |
| Ödənilmiş faizlər | | (5,966) | (2,455) |
| Alınmış haqq və komissiyalar | | 3,469 | 2,085 |
| Ödənilmiş haqq və komissiyalar | | (1,179) | (674) |
| Xarici valyuta ilə əməliyyatlardan əldə edilmiş gəlirlər | | 826 | 459 |
| Əldə edilmiş digər əməliyyat gəlirləri | | 62 | 10 |
| İşçilərə ödənilmiş xərclər | | (2,091) | (1,374) |
| Ödənilmiş inzibati və digər əməliyyat xərcləri | | (1,828) | (1,000) |
| Ödənilmiş mənfəət vergisi | | (154) | (730) |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | **5,039** | **1,651** |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklər** | | | |
| Digər banklardan alınacaq vəsaitlərdə xalis dəyişiklik | | (2,343) | 3,287 |
| Müştərilərə verilmiş kreditlər və avanslarda xalis dəyişiklik | | (34,056) | (23,457) |
| Məcburi ehtiyatlarda xalis dəyişiklik | | (1,457) | (71) |
| Digər maliyyə aktivlərində xalis dəyişiklik | | (52) | (47) |
| Digər aktivlərdə xalis dəyişiklik | | (16) | (435) |
| Digər banklara ödəniləcək vəsaitlərdə xalis dəyişiklik | | (194) | 3,543 |
| Müştəri hesablarında xalis dəyişiklik | | 24,011 | 1,021 |
| Buraxılmış borc qiymətli kağızlarında xalis dəyişiklik | | (10) | (266) |
| Digər passivlərdə xalis dəyişiklik | | 41 | - |
| Digər maliyyə passivlərində xalis dəyişiklik | | 134 | 17 |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **(8,903)** | **(14,757)** |
| **İnvestisiya fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Satıla bilən investisiya qiymətli kağızlarının alınması | | - | (7,435) |
| Satıla bilən investisiya qiymətli kağızlarının satışından daxilolmalar və onların ödənilməsi | | 13 | 11,215 |
| Binalar və avadanlıqların alınması | | (735) | (609) |
| Binalar və avadanlıqların satışından daxilolmalar | | 91 | 8 |
| Qeyri-maddi aktivlərin alınması | | (37) | (10) |
| Əldə edilmiş dividend gəlirləri | | - | 21 |
| Əsas vəsaitlər üzrə qabaqcadan ödənişlər | | (463) | - |
| **İnvestisiya fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **(1,131)** | **3,190** |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitlərindən daxilolmalar | | 6,668 | 8,868 |
| Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitlərinin ödənilməsi | | (2,716) | (815) |
| Adi səhmlərin emissiyası | 10 | 9,860 | 1,000 |
| Ödənilmiş dividendlər | 14 | (1,917) | (1,336) |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **11,895** | **7,717** |
| **Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri** | | **(118)** | **27** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis azalma** | | **1,743** | **(3,823)** |
| Dövrün əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri | | 24,305 | 15,056 |
| **Dövrün sonuna pul vəsaitləri və onların ekvivalentləri** | | **26,048** | **11,233** |

## 1 Giriş

Hazırkı yığcam aralıq maliyyə məlumatları 30 iyun 2008-ci il tarixində tamamlanan altı aylıq dövr üzrə BMS 34 "Aralıq Maliyyə Hesabatları" Standartına ("BMS 34") uyğun olaraq Azəriqazbank Səhmdar İnvestisiya Bankı ("Bank") üçün hazırlanmışdır.

Bank Azərbaycan Respublikasında qeydiyyatdan keçmişdir və bu ölkədə fəaliyyət göstərir. Bank Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış məhdud məsuliyyətli səhmdar cəmiyyətidir.

***Əsas fəaliyyət növləri.*** Bankın əsas fəaliyyəti Azərbaycan Respublikasında kommersiya və fərdi bank əməliyyatlarının göstərilməsindən ibarətdir. Bank 1993-cü ilin yanvar ayından Azərbaycan Respublikası Milli Bankı ("ARMB") tərəfindən verilmiş ümumi bank lisenziyası əsasında fəaliyyət göstərir.

Bankın Azərbaycan Respublikasında on bir filialı vardır (2007: on bir filial).

***Bankın hüquqi ünvanı və fəaliyyət göstərdiyi yer.*** Bankın hüquqi ünvanı aşağıdakı kimidir:

Landau küçəsi 16,
AZ1073
Bakı, Azərbaycan Respublikası

***Əməliyyat valyutası.*** Hazırkı yığcam aralıq maliyyə məlumatlarındakı məbləğlər min Azərbaycan Manatı ("AZN") ilə ifadə olunmuşdur.

## 2 Bankın Əməliyyat Mühiti

Azərbaycan Respublikasında yeni yaranmış bazar iqtisadiyyatına xas xüsusiyyətlər, o cümlədən digər ölkələrdə sərbəst dönərli valyuta hesab edilməyən valyutanın, xarici valyuta əməliyyatları üzrə məhdudlaşdırıcı nəzarət sisteminin mövcudluğu və nisbətən yüksək inflyasiya və iqtisadi artım müşahidə olunmaqdadır. Azərbaycanın bank sektoru ictimai fikirdəki mənfi dəyişikliklərə və iqtisadi şəraitə qarşı həssasdır. Bəzən Azərbaycan iqtisadiyyatında likvidlik riskləri ilə əlaqədar olaraq bank sektoruna inamın azalması halları müşahidə olunur. Bank sektorundakı iqtisadi tendensiyaları və aparılacaq islahatları, habelə Azərbaycanın bank sektorunda likvidlik və ya inamın azalması hallarının Bankın maliyyə vəziyyətinə mümkün təsirini qabaqcadan proqnozlaşdırmaq mümkün deyil.

Azərbaycan Respublikasının vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Bundan əlavə, Azərbaycan Respublikasında fəaliyyət göstərən bankların üzləşdiyi çətinliklərə müflisləşmə və iflas haqqında qanunverici bazanın təkmilləşdirilməsi zərurəti, rəsmiləşdirilmiş qeydiyyat və girovun hesabına borcların ödənilməsi prosedurlarının çatışmazlığı, eləcə də hüquqi və fiskal sistemlə bağlı digər çatışmazlıqlar daxildir. Azərbaycan Respublikasında iqtisadi inkişafın gələcək perspektivləri Hökumətin həyata keçirdiyi iqtisadi, maliyyə və pul islahatlarının effektivliyindən, eləcə də vergi, hüquq, normativ və siyasi sistemin inkişafından xeyli dərəcədə asılıdır.

***Qlobal maliyyə bazarlarındakı son qeyri-sabitlik***. 2007-ci ilin ortalarında yaranmış qlobal likvidlik böhranı kapital bazarlarında maliyyələşdirmə səviyyəsinin aşağı düşməsinə, bəzən normal banklararası kredit dərəcələrindən daha çox olmasına və Azərbaycanın bank sektorunda likvidlik səviyyəsinin azalmasına səbəb olmuşdur. Bu isə müştərilərə verilmiş yeni kreditlər və avansların sayının əhəmiyyətli dərəcədə azalmasına və beynəlxalq təşkilatlar və digər yerli banklardan borc vəsaitlərinin alınması mümkün olduqda maliyyələşdirmə xərclərinin artmasına gətirib çıxarır. Qlobal maliyyə bazarlarında baş verən qeyri-müəyyənliklər həmçinin Amerika Birləşmiş Ştatları, Qərbi Avropa və Rusiyada bankların müflisləşməsinə və güclənməsinə gətirib çıxarmışdır. Bu cür hallar Bankın yeni borc vəsaitləri əldə etmək qabiliyyətinə təsir göstərə və son dövrlərdə analoji əməliyyatlara tətbiq edilən şərtlər ilə mövcud kreditlər və borc vəsaitlərinin yenidən maliyyələşdirilməsinə gətirib çıxara bilər. Bundan əlavə, likvidlik səviyyəsinin aşağı olması Bankın borcalanlarına da təsir göstərə bilər ki, bu da öz növbəsində onların ödəniş qabiliyyətinə təsir göstərə bilər. Borcalanlar üçün qeyri-əlverişli əməliyyat şərtləri həmçinin pul vəsaitlərinin hərəkəti üzrə rəhbərliyin proqnozlarına, eləcə də maliyyə və qeyri-maliyyə aktivləri üzrə dəyərsizləşmənin müəyyən edilməsinə təsir göstərə bilər. Mövcud məlumata əlavə olaraq, rəhbərlik gələcək pul vəsaitlərinin hərəkəti üzrə yenidən nəzərdən keçirilmiş təxminlərini öz qiymətləndirmələrində əks etdirmişdir.

## 2 Bankın Əməliyyat Mühiti (davamı)

Rəhbərlik maliyyə bazarlarında likvidlik səviyyəsinin gələcəkdə azalması və valyuta və kapital bazarlarında qeyri-sabitliyin artmasının Bankın maliyyə vəziyyətinə təsirini qiymətləndirmək iqtidarında deyil. Rəhbərlik, mövcud şəraitdə Bankın fəaliyyətinin davamlılığını və inkişafını təmin etmək üçün bütün lazımi tədbirlərin görüldüyünü hesab edir.

## 3 Yığcam Aralıq Maliyyə Məlumatlarının Tərtib Edilməsinin Əsas Prinsipləri

Hazırkı yığcam aralıq maliyyə məlumatları BMS 34 “Aralıq Maliyyə Hesabatları” Standartına uyğun olaraq hazırlanmışdır. Həmin yığcam aralıq maliyyə məlumatları Bankın 31 dekabr 2007-ci il tarixində tamamlanan il üzrə illik maliyyə hesabatları ilə birgə nəzərdən keçirilməlidir.

Hazırkı yığcam aralıq maliyyə məlumatlarına müqayisə üçün 30 iyun 2007-ci il tarixində tamamlanan altı aylıq dövr üzrə mənfəət və zərər hesabatındakı məlumatlar, eləcə də 31 dekabr 2007-ci il tarixində tamamlanan il üzrə balans hesabatındakı məlumatlar daxil edilmişdir.

30 iyun 2008-ci il tarixinə xarici valyuta qalıqlarının çevrilməsində istifadə olunan əsas valyuta məzənnələri: 1 ABŞ dolları = AZN 0.8116 (31 dekabr 2007: 1 ABŞ dolları = AZN 0.8453).

***Fasiləsiz fəaliyyət prinsipi.*** Rəhbərlik hazırkı yığcam aralıq maliyyə məlumatlarını fasiləsiz fəaliyyət prinsipinə əsasən hazırlamışdır. Belə bir mülahizə irəli sürərkən rəhbərlik mövcud planları, əməliyyatların gəlirliliyini və maliyyə resurslarından istifadəni nəzərə almışdır.

16 saylı Qeyddə açıqlandığı kimi, Bankın bir il müddətinə 40,092 min AZN (31 dekabr 2007: 15,178 min AZN) məbləğində məcmu mənfi likvidlik çatışmazlığı olmuşdur. Son zamanlar baş vermiş qlobal hadisələrin Beynəlxalq Maliyyə Təşkilatlarından yeni və ya müddəti artırılmış borc vəsaitlərinin əldə edilməsi qabiliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərməsi və mümkün olduqda maliyyə vəsaitlərinin dəyərinin tipik surətdə artması ilə əlaqədar olaraq, rəhbərlik yaranmış vəziyyəti fəal şəkildə idarə edir və aşağıdakı tədbirlərin nəticəsində hesab edir ki, Bank ödəmə müddəti başa çatmış bütün öhdəliklərin davamlı olaraq yerinə yetirilməsi üçün kifayət qədər maliyyə resursları əldə edə biləcəkdir:

(i) 16 saylı Qeyddə açıqlandığı kimi, rəhbərlik kreditin son ödəmə tarixində əsas məbləğ üzrə qalıqları konservativ prinsip əsasında təsnifləşdirmişdir, lakin praktikada kreditin müddəti ərzində ödənişlərə əsas məbləğ və faizlər də daxildir. Nəticədə rəhbərlik, kredit portfeli üzrə ödənişlərin 16 saylı Qeyddə göstərilən ödəniş müddəti ilə müqayisədə sürətlənəcəyini gözləyir;

(ii) rəhbərlik keçmiş üç il ərzində müştəri hesablarının, o cümlədən müddətli depozitlərin səviyyəsini təhlil etmişdir və bu məbləğlərin Bank üçün sabit maliyyə mənbəyi yaratmasına dair sübut olduğunu hesab edir. Bu halda 16 saylı Qeyddə likvidlik mövqeyi kreditlərin müqavilə üzrə ödəmə müddətlərini əks etdirdiyinə görə, rəhbərlik hesab edir ki, mövcud məbləğlərin böyük hissəsi Bankda qalacaqdır və yeni müştəri hesablarının açılması və müddətli depozitlərin cəlb edilməsi davam etdiriləcəkdir; və

(iii) Bank Beynəlxalq Maliyyə Təşkilatları, mövcud borcverənlər və digər tərəflərlə yeni və ya əlavələr edilmiş müqavilələrin razılaşdırılması və növbəti bir il ərzində maliyyə vəsaitinin ayrılması istiqamətində danışıqları davam etdirir;

## 4 Uçot Siyasəti və Əhəmiyyətli Mühasibat Təxminləri və Mülahizələri

Hazırkı yığcam aralıq maliyyə məlumatlarının hazırlanması zamanı tətbiq edilən uçot siyasəti və hesablama üsulları Bankın 31 dekabr 2007-ci il tarixində tamamlanan il üzrə illik maliyyə hesabatlarına uyğundur.

Uçot siyasətinin tətbiqi prosesində rəhbərliyin irəli sürdüyü mülahizələr 31 dekabr 2007-ci il tarixində tamamlanan il üzrə illik maliyyə hesabatlarında açıqlanan mülahizələrə uyğun olmuşdur. 31 dekabr 2007-ci il tarixində tamamlanan il üzrə illik maliyyə hesabatlarında açıqlanan mülahizələrdən başqa, rəhbərlik dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış vəsaitlər və müvafiq kreditlərin ilkin uçotu zamanı yarana biləcək ədalətli dəyər üzrə gəlir və ya zərəri nəzərə almışdır. Bank beynəlxalq maliyyə təşkilatlarından bənzər təşkilatların inkişaf etməkdə olan bazarlarda təqdim etdiyi vəsaitlərin faiz dərəcələri ilə eyni olan və Bankın yerli borcverənlərdən ala biləcəyi borc vəsaitləri üzrə faiz dərəcələrindən aşağı ola bilən faiz dərəcələri ilə borc vəsaiti alır. Bank bu cür vəsaitlər hesabına ayrı-ayrı müştərilərə güzəştli dərəcələr ilə kreditlər vermək imkanındadır. Həmin əməliyyatlar əlaqəli tərəflərlə aparılmadığına görə, rəhbərlik həmin vəsaitlərin və müvafiq kreditlərin bazar faiz dərəcələrinə uyğun olduğunu və ilkin uçot zamanı gəlir və ya zərərin yaranmadığını hesab edir. Belə bir mülahizə irəli sürərkən, rəhbərlik həmçinin həmin maliyyə alətlərinin ayrıca bazar seqmenti yaratdığını nəzərə almışdır.

Rəhbərlik, mülahizələrin irəli sürülə biləcəyi hər hansı digər yeni sahələri müəyyən etməmişdir. Sonuncu illik maliyyə hesabatlarında açıqlanan əhəmiyyətli təxminlər 30 iyun 2008-ci il tarixində tamamlanan altı aylıq dövr ərzində Bankın aktivləri, mənfəət və ya zərəri ilə bağlı əhəmiyyətli mühasibat düzəlişinin aparılmasına gətirib çıxarmamışdır.

***Aralıq dövrdə qiymətləndirmə.*** Hazırkı yığcam aralıq maliyyə məlumatlarında mənfəət vergisi xərci bütöv maliyyə ili üzrə gözlənilən effektiv illik mənfəət vergisi dərəcəsinə uyğun rəhbərliyin ən dəqiq təxminlərinə əsasən uçota alınır. Maliyyə ili ərzində bərabər şəkildə baş verməyən xərclər aralıq dövrdə yalnız o halda təxmin edilir/təxirə salınır ki, həmin xərclərin maliyyə ilinin sonunda təxmin edilməsi/təxirə salınması uyğun olsun.

1 yanvar 2008-ci il tarixindən Banka təsir göstərə bilən bəzi yeni BMHS-lər qüvvəyə minmişdir:

***Hüquqların Verilməsi və Ləğv Edilməsi Şərtləri—BMHS 2-ə Əlavə, Pay Əsasında Ödənişlər (2008-ci ilin yanvar ayında buraxılmışdır; 1 yanvar 2008 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** Bu əlavədə yalnız xidmət şərtlərinin və icra şərtlərinin hüquqların verilməsi və ləğv edilməsi şərtləri olması müəyyən edilir. Pay əsasında ödənişlərin digər xüsusiyyətləri hüquqların verilməsi və ləğv edilməsi şərtlərinə aid deyil. Bu əlavə, müəssisənin və ya digər tərəflərin ləğv edilməsinin eyni uçot qaydası ilə aparılmasını müəyyənləşdirir. Həmin əlavə Bankın yığcam aralıq maliyyə məlumatlarına təsir göstərməmişdir.

***Digər yeni standartlar və şərhlər.*** Bank aşağıdakı digər yeni standartları və ya şərhləri qəbul etmişdir:

- IFRIC 11, BMHS 2 – *Bank və səhmdarlardan geri alınmış səhmlər üzrə əməliyyatlar* (1 mart 2007 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir);
- IFRIC 12, *Konsessiya xidmətlərinin razılaşdırılması* (1 yanvar 2008 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir); və
- IFRIC 14, BMS 19 – *Konkret Aktivlər üzrə Limit, Minimum Maliyyələşdirmə Tələbləri və onların Qarşılıqlı Əlaqəsi* (1 yanvar 2008-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).

Qeyd edilən IFRIC şərhləri Bankın yığcam aralıq maliyyə məlumatlarına əhəmiyyətli dərəcədə təsir göstərməmişdir.

Bankın 1 yanvar 2008-ci il tarixindən və ya bu tarixdən sonra başlayan hesabat dövrləri üçün məcburi xarakter daşıyan və ya Bank tərəfindən əvvəllər qəbul edilməyən bəzi yeni standartlar və onlara dair şərhlər dərc olunmuşdur:

***BMHS 8, "Əməliyyat seqmentləri" (1 yanvar 2009 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** Bu Standart borc və ya pay alətləri açıq bazarda alınıb-satılan təşkilatlara, eləcə də açıq bazarda hər-hansı növ alətlərin yerləşdirilməsi ilə əlaqədar maliyyə hesabatlarını tənzimləyici orqanlara təqdim edən və ya təqdim etməyi planlaşdıran müəssisələrə tətbiq edilir. BMHS 8 müəssisələrin öz əməliyyat seqmentləri haqqında maliyyə və təsviri məlumatları açıqlamasını tələb edir və müəssisələrin bu cür məlumatı öz maliyyə hesabatlarında açıqlama qaydasını əks etdirir.

## 4 Uçot Siyasəti və Əhəmiyyətli Mühasibat Təxminləri və Mülahizələri (davamı)

Hazırda Bank bu Standartın onun maliyyə hesabatlarında seqment haqqında məlumatların açıqlanmasına göstərəcəyi təsiri qiymətləndirir.

***Vaxtından əvvəl ödənilmək hüququna malik olan maliyyə alətləri və ləğvetmə zamanı yaranan öhdəliklər – BMS 32 və BMS 1 Əlavə (1 yanvar 2009-cu il tarixdən qüvvəyə minir).*** Bu Əlavə, maliyyə öhdəliyi anlayışına cavab verən bəzi maliyyə alətlərinin kapital kimi təsnifləşdirilməsini tələb edir. Hazırda Bank bu Əlavənin onun maliyyə hesabatlarına təsirini qiymətləndirir.

***BMS 23, Borc vəsaitləri üzrə xərclər (mart, 2007-ci ildə yenidən işlənmişdir; 1 yanvar 2009 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** Yenidən işlənmiş BMS 23, 2007-ci ilin mart ayında dərc edilmişdir. Bu Standarta edilmiş əsas dəyişiklik istifadəsi və ya satışı kifayət qədər uzun müddət tələb edən aktivlərə aid olan borc vəsaitləri üzrə xərclərin dərhal xərcə silinməsi üsulunun ləğv edilməsidir. Buna görə, müəssisə borc vəsaitləri üzrə xərcləri aktivin maya dəyəri kimi kapitallaşdırmalıdır. Yenidən işlənmiş Standart kapitallaşdırmaya başlanma tarixi 1 yanvar 2009 və ya bu tarixdən sonra olan kvalifikasiyalı aktivlərə aid borc vəsaitləri üzrə xərclərə prospektiv qaydada tətbiq edilir. Hazırda Bank yenidən işlənmiş Standartın onun maliyyə hesabatlarına təsirini qiymətləndirir.

***BMS 1, Maliyyə Hesabatlarının Təqdimatı (sentyabr, 2007-ci ildə yenidən işlənmişdir; 1 yanvar 2009 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** BMS 1 üzrə əsas dəyişiklik mənfəət və zərər hesabatının ətraflı mənfəət və zərər hesabatı ilə əvəz edilməsidir. Bu hesabata həmçinin səhmdar kapitalında qeyri-sahibkarların iştirak paylarındakı bütün dəyişikliklər (məs, satıla bilən maliyyə aktivlərinin yenidən qiymətləndirilməsi) daxildir. Alternativ olaraq, müəssisələr iki hesabat təqdim edə biləcəklər: mənfəət/zərər hesabatı və ətraflı mənfəət/zərər hesabatı. Yenidən işlənmiş BMS 1 maliyyə vəziyyəti haqqında hesabatın (balans hesabatı) müqayisəli məlumatların hazırlandığı ən son dövrün başlanğıcında tərtib edilməsinə dair tələbi açıqlayır və yenidən təsnifləşdirmə, uçot siyasətində dəyişikliklər və ya səhvlərin düzəldilməsi ilə bağlı hər dəfə müqayisəli məlumatı yeniləşdirərək, müəssisə bu müddət üzrə müqayisəli məlumatı təqdim edir. Bank hesab edir ki, yenidən işlənmiş BMS 1 onun maliyyə hesabatlarının təqdimatına təsir göstərəcək, lakin konkret əməliyyatların və ya qalıqların tanınması və ya ölçülməsinə heç bir təsir göstərməyəcəkdir.

***BMS 27, Konsolidasiya Edilmiş və Konsolidasiya Edilməmiş Hesabatlar (yanvar, 2008-ci ildə yenidən işlənmişdir; 1 iyul 2009 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** Yenidən işlənmiş BMS 27 şirkətdən ümumi gəlirlərin baş müəssisə sahiblərinə və nəzarət olunmayan pay sahiblərinə (bundan əvvəl "azlığın payı") aid edilməsini tələb edir (hətta nəzarət olunmayan pay üzrə nəticələrin kəsir olduğu təqdirdə). Qüvvədə olan standart əksər hallarda artıq zərərlərin baş müəssisənin sahiblərinə aid edilməsini tələb edir. Bundan əlavə, yenidən işlənmiş standartda göstərilir ki, baş müəssisənin törəmə müəssisədəki iştirak payında nəzarətin itirilməsi ilə nəticələnməyəcək dəyişikliklər səhm alətləri üzrə əməliyyatlar kimi uçota alınsın. Standart həmçinin törəmə müəssisə üzrə nəzarətin itirilməsi nəticəsində yaranan hər hansı mənfəət və zərərin müəssisə tərəfindən qiymətləndirilməsini müəyyənləşdirir. Nəzarətin itirildiyi tarixdə keçmiş törəmə müəssisədə saxlanılmış investisiyalar ədalətli dəyərlə ölçülməlidir. Hazırda Bank yenidən işlənmiş Standartın onun maliyyə hesabatlarına təsirini qiymətləndirir.

***BMHS 3, Müəssisələrin Birləşməsi (yanvar, 2008-ci ildə yenidən işlənmişdir; alqı tarixi 1 iyul 2009 və ya bu tarixdən sonra başlayan birinci illik hesabat dövrünün başlanğıcı və ya sonra olan müəssisələrin birləşməsi üçün qüvvəyə minir).*** Yenidən işlənmiş BMHS 3 müəssisələrə mövcud BMHS 3 üsulu (alıcının əldə edilmiş müəssisənin identifikasiya edilə bilən xalis aktivlərində proporsional payı) və ya ABŞ ÜQMP-də olduğu kimi eyni üsuldan (ədalətli dəyərlə) istifadə etməklə nəzarət olunmayan iştirak paylarının qiymətləndirilməsi imkanı verir. Yenidən işlənmiş BMHS 3 müəssisələrin birləşməsində alqı metodunun tətbiqi üzrə daha ətraflı məlumat təlimat verir. Qudvilə aid olan hissənin hesablanması məqsədilə, hər bir mərhələli alqı prosesində bütün aktiv və öhdəliklərin ədalətli dəyərlə qiymətləndirilməsi tələbi hesabatdan çıxarılmışdır.

Bundan sonra qudvil, alqı tarixində alqıdan əvvəl şirkətdəki hər hansı investisiyanın ədalətli dəyəri, ödənilmiş məbləğ və əldə edilmiş xalis aktivlər arasında fərq kimi uçota alınacaqdır. Alqı ilə bağlı xərclər müəssisələrin birləşməsi əməliyyatından ayrıca tanınacaq və qudvil kimi yox, xərc kimi uçota alınacaqdır. Alıcı şirkət, alqı tarixində alqı ilə bağlı hər hansı şərti məbləğ üzrə öhdəliyi alqı tarixində uçota almalıdır. Alqı tarixindən sonra bu öhdəliyin dəyərindəki dəyişikliklər qudvilin təshih edilməsi yolu ilə deyil, tətbiq edilən digər BMHS-lərə uyğun olaraq uçota alınacaqdır. Yenidən işlənmiş BMHS 3 yalnız bir neçə müəssisənin iştirakı ilə müəssisələrin birləşməsini və təkcə müqavilə əsasında həyata keçirilmiş müəssisələrin birləşməsini əhatə edir. Hazırda Bank yenidən işlənmiş Standartın onun maliyyə hesabatlarına təsirini qiymətləndirir.

## 4 Uçot Siyasəti və Əhəmiyyətli Mühasibat Təxminləri və Mülahizələri (davamı)

***IFRIC 13, 'Müştəri Loyallıq Proqramları' (iyun 2007-ci il tarixində dərc edilmişdir; 1 iyul 2008 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir ).*** IFRIC 13-də mal və xidmətlərin müştəri loyallıq proqramları əsasında satılması müəyyənləşdirilir (məsələn: loyallıq xalları və ya təmənnasız məhsullar), bu çox elementli bir razılaşmadır və müştəridən alınacaq məbləğlər ədalətli dəyərdən istifadə etməklə razılaşmanın komponentləri arasında bölüşdürülür. Hazırda Bank bu Əlavənin onun maliyyə hesabatlarına təsirini qiymətləndirir.

***IFRIC 15, Daşınmaz Əmlakın Tikintisi üzrə Müqavilələr (1 yanvar 2009-cu il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** Bu şərh birbaşa və ya subpodratçılar vasitəsilə daşınmaz əmlakın tikintisi ilə məşğul olan müəssisələrin gəlirləri və əlaqəli xərclərinin uçota alınmasına tətbiq edilir və daşınmaz əmlakın tikintisi üzrə müqavilələrin BMS 11 və ya BMS 18-ə uyğun olub-olmadığının müəyyən edilməsinə dair təlimat verir. IFRIC 15 həmçinin, müəssisələr tərəfindən bu cür əməliyyatlar üzrə gəlirlərin nə vaxt uçota alınmasını müəyyən edən meyarları əks etdirir.

***IFRIC 16, Xarici Müəssisələrdəki Xalis İnvestisiyaların Hecinqi (1 oktyabr 2008-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** Bu şərhdə hansı valyuta riskləri üzrə hecinq uçotunun aparılması uyğun olduğu izah edilir və qeyd olunur ki, funksional valyutadan təqdimat valyutasına köçürmə hecinq uçotunun tətbiq edilə biləcəyi riski yaratmır. IFRIC 16, hecinq alətinin Bankın müəssisəsi və ya müəssisələri tərəfindən saxlanılmasına icazə verir (hecinq olunan xarici müəssisənin özü istisna olmaqla). Bu şərhdə həmçinin hecləşdirilən xarici müəssisənin silinməsi zamanı valyutanın çevrilməsi üzrə ehtiyat hesabından mənfəət və zərər hesabına köçürülən gəlir və ya zərərin hesablanma qaydası açıqlanır. Hesabat hazırlayan müəssisələr tətbiq etdikləri hecinqin IFRIC 16-da qeyd olunmuş hecinq uçotu meyarlarına cavab vermədiyi təqdirdə, bu hecləri prospektiv qaydada BMS 39-a uyğun olaraq hecinq uçotunu dayandırmaq prinsipini tətbiq edirlər.

***Beynəlxalq Maliyyə Hesabatı Standartlarının Təkmilləşdirilməsi (may, 2008-ci ildə buraxılmışdır).*** 2007-ci ildə Beynəlxalq Mühasibat Standartları Şurası (BMSŞ) BMHS-ə lazımi, lakin çox vacib olmayan düzəlişlərin aparılması məqsədilə illik təkmilləşdirmə layihəsinin həyata keçirilməsinə dair qərar qəbul etmişdir. 2008-ci ilin may ayında aparılmış düzəlişlər müxtəlif standartlara edilmiş əsaslı dəyişikliklər, açıqlamalar və terminoloji düzəlişlərdən ibarətdir. Həmin əsaslı dəyişikliklər aşağıdakı sahələrdə aparılmışdır: törəmə müəssisə üzərində nəzarətin itirildiyi halda BMHS 5-ə əsasən onun satış üçün nəzərdə tutulan kimi təsnifləşdirilməsi; BMS 1-ə əsasən alqı-satqı üçün nəzərdə tutulan maliyyə alətlərinin uzunmüddətli aktivlər kimi təqdim edilməsi; BMS 16-a uyğun olaraq əvvəllər icarə üçün nəzərdə tutulan aktivlərin satışının uçotu və BMS 7-ə əsasən müvafiq pul vəsaitləri hərəkətinin əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını kimi təsnifləşdirilməsi; BMS 19-a əsasən sekvestr anlayışının aydınlaşdırılması; BMS 20-ə uyğun olaraq bazar faiz dərəcələrindən aşağı faiz dərəcələrilə verilmiş dövlət subsidiyalarının uçotu; BMS 23-ə əsasən borc vəsaitləri üzrə xərclər anlayışının effektiv faiz metoduna uyğun olaraq verilməsi; BMS 27 və BMHS 5-ə əsasən satış üçün nəzərdə tutulan törəmə müəssisələr üzrə uçotun aydınlaşdırılması; BMS 28 və BMS 31-ə uyğun olaraq assosiasiya olunmuş və birgə müəssisələrlə bağlı məlumatların açıqlanması tələblərində azalma; BMS 36-a uyğun olaraq açıqlamaların genişləndirilməsi; BMS 38-ə uyğun olaraq reklam xərcləri üzrə uçotun aydınlaşdırılması; "mənfəət və zərər hesabında ədalətli dəyərdə" kateqoriyası anlayışının BMS 39-a əsasən hecinq uçotu ilə uyğunluğu təmin etmək üçün dəyişdirilməsi; BMS 40-a uyğun olaraq tikintisi başa çatdırılmamış investisiya mülkiyyəti üzrə uçotun aparılması; və BMS 41-ə uyğun olaraq bioloji aktivlərin ədalətli dəyərinin müəyyən edilməsi qaydalarındakı məhdudiyyətlərin azaldılması. BMS 8, 10, 18, 20, 29, 34, 40, 41 və BMHS 7-ə edilmiş digər düzəlişlər yalnız terminoloji xarakter daşıyır və redaktə ilə bağlı dəyişiklikləri əks etdirir və BMSŞ-nin fikrincə bu dəyişikliklərin mühasibat uçotuna heç bir təsiri yoxdur və ya minimal təsir göstərir. Hazırda Bank bu Əlavənin onun maliyyə hesabatlarına təsirini qiymətləndirir.

## 4 Uçot Siyasəti və Əhəmiyyətli Mühasibat Təxminləri və Mülahizələri (davamı)

***Törəmə, birgə və ya assosiasiya olunmuş müəssisələrdəki investisiyaların maya dəyəri – BMHS 1 və BMS 27 Əlavə (may, 2008-ci ildə yenidən işlənmişdir; 1 yanvar 2009 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** Bu əlavə, BMHS-i ilk dəfə qəbul edən müəssisələrə törəmə, birgə və ya assosiasiya olunmuş müəssisələrdəki investisiyaları maliyyə hesabatlarında ədalətli dəyərlə yaxud əvvəlki uçot qaydalarına uyğun olaraq balans dəyəri ilə qiymətləndirmək imkanı verir. Bu əlavə, həmçinin investisiya obyektlərindəki xalis aktivlərin alqıdan əvvəlki gəlirlərini investisiyanın bərpa edilməsi kimi deyil, mənfəət və zərər hesabatında uçota alınmasını tələb edir. Həmin əlavələrin Bankın maliyyə hesabatlarına təsiri gözlənilmir.

***Müvafiq Hecləşdirilən Maddələr – BMS 39, Maliyyə Alətləri: Tanınması və Ölçülməsi Standartına Düzəliş (daha əvvəl tətbiq edilməsi imkanı ilə 1 iyul 2009 və ya bu tarixdən sonra başlayan illik dövrlərə retrospektiv olaraq tətbiq edilməklə qüvvəyə minir).*** Əlavədə konkret vəziyyətdə tətbiq ediləcək hecləşdirilmiş riskin və ya pul vəsaitləri üzrə hərəkətin əks etdirilməsi üçün münasib olub-olmamasını müəyyən edən prinsiplər aydın şəkildə göstərilir. Həmin əlavənin Bankın maliyyə hesabatlarına təsiri gözlənilmir.

Yuxarıda göstərilən hallardan başqa, yeni standartlar və şərhlər Bankın maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərməyəcəkdir.

## 5 Pul Vəsaitləri və Onların Ekvivalentləri

| *Min Azərbaycan Manatı ilə* | **30 iyun 2008 (audit olunmamış)** | **31 dekabr 2007** |
|---|---|---|
| Nağd pul | 10,909 | 8,393 |
| ARMB-dəki qalıqlar (məcburi ehtiyat depozitlərindən başqa) | 1,538 | 6,808 |
| Digər banklardakı müxbir hesablar və overnayt depozitlər | | |
| - Azərbaycan Respublikasında | 230 | 277 |
| - Digər ölkələrdə | 13,371 | 8,827 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **26,048** | **24,305** |

Digər banklardakı müxbir hesablara və overnayt depozitlərə Bankın üç qeyri-rezident bankda yerləşdirdiyi 6,370 min AZN, 3,642 min AZN və 3,022 min AZN (3,910 min AZN, 2,134 min AZN və 23 min AZN) məbləğində depozitlər daxildir. Həmin depozitlər üzrə illik faiz dərəcələri müvafiq olaraq 0.75%-2.75%, 2.75%-3.0%-3.05% (31 dekabr 2007: müvafiq olaraq illik 3.5%, 2.5% və 2.5%) təşkil edir.

## 6 Müştərilərə Verilmiş Kreditlər və Avanslar

| *Min Azərbaycan Manatı ilə* | 30 iyun 2008 (audit olunmamış)) | 31 dekabr 2007 |
|---|---|---|
| Korporativ kreditlər | 69,559 | 53,984 |
| İstehlak kreditləri | 49,188 | 34,562 |
| Sahibkarlara verilmiş kreditlər | 3,856 | 5,591 |
| İpoteka kreditləri | 14,315 | 8,820 |
| Avtomobil kreditləri | 4,509 | 4,813 |
| Dövlət müəssisələri və bələdiyyə təşkilatları | 132 | 698 |
| Digər | 3,860 | 2,690 |
| Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat çıxılmaqla | (4,836) | (3,292) |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **140,583** | **107,866** |

Müştərilərə verilmiş kreditlərin dəyərsizləşməsi üzrə ehtiyatın hərəkəti aşağıdakı kimidir:

| *Min Azərbaycan Manatı ilə* | Korporativ kreditlər | İstehlak kreditləri | Sahibkar-lara verilmiş kreditlər | İpoteka kreditləri | Avto-mobil kreditləri | Dövlət müəssisə-ləri və bələdiyyə təşkilatları | Digər | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| **1 yanvar 2007-ci il tarixinə dəyərsizləşmə üzrə ehtiyat** | **1,004** | **575** | **74** | **34** | **284** | **4** | **-** | **1,975** |
| Dövr ərzində ehtiyatın yaradılması/(ehtiyatın qaytarılması) | 479 | 320 | (13) | 35 | (45) | 25 | - | 801 |
| Dövr ərzində silinmiş ümidsiz borclar | - | (50) | - | - | (50) | - | - | (100) |
| **30 iyun 2007-ci il tarixinə dəyərsizləşmə üzrə ehtiyat** | **1,483** | **845** | **61** | **69** | **189** | **29** | **-** | **2,676** |
| Dövr ərzində ehtiyatın yaradılması/(ehtiyatın qaytarılması) | (38) | 503 | 135 | 9 | 15 | (8) | - | 616 |
| **31 dekabr 2007-ci il tarixinə dəyərsizləşmə üzrə ehtiyat** | **1,445** | **1,348** | **196** | **78** | **204** | **21** | **-** | **3,292** |
| Dövr ərzində ehtiyatın yaradılması/(ehtiyatın qaytarılması) | 1,204 | 63 | (67) | 223 | 77 | (18) | 62 | 1,544 |
| Dövr ərzində silinmiş ümidsiz borclar | - | - | - | - | - | - | - | - |
| **30 iyun 2008-ci il tarixinə dəyərsizləşmə üzrə ehtiyat** | **2,649** | **1,411** | **129** | **301** | **281** | **3** | **62** | **4,836** |

## 6 Müştərilərə Verilmiş Kreditlər və Avanslar (davamı)

Kredit portfelinin iqtisadi sektorlar üzrə strukturu aşağıdakı kimidir:

| | 30 iyun 2008 | | 31 dekabr 2007 | |
|---|---|---|---|---|
| *Min Azərbaycan Manatı ilə* | **Məbləğ** | **%** | **Məbləğ** | **%** |
| Fiziki şəxslər | 75,754 | 52% | 53,786 | 48% |
| Ticarət və xidmətlər | 29,975 | 21% | 17,945 | 16% |
| İstehsal | 18,850 | 13% | 18,132 | 16% |
| İnşaat | 9,579 | 7% | 7,524 | 7% |
| Kənd təsərrüfatı | 8,064 | 5% | 6,913 | 6% |
| Nəqliyyat | 1,711 | 1% | 3,470 | 3% |
| Dövlət müəssisələri və bələdiyyə təşkilatları | 132 | - | 2,690 | 3% |
| Digər | 1,354 | 1% | 698 | 1% |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar (ehtiyat ayırmalarından əvvəl)** | **145,419** | **100%** | **111,158** | **100%** |

## 7 Digər Banklara Ödəniləcək Vəsaitlər

| *Min Azərbaycan Manatı ilə* | **30 iyun 2008 (audit olunmamış)** | **31 dekabr 2007** |
|---|---|---|
| Digər bankların qısamüddətli depozitləri | 6,457 | 12,140 |
| Digər bankların müxbir hesabları və overnayt depozitləri | 6,180 | 762 |
| **Cəmi digər banklara ödəniləcək vəsaitlər** | **12,637** | **12,902** |

30 iyun 2008-ci il tarixinə rezident bankların qısamüddətli depozitlərinə rezident banklardan illik 2%-16% (31 dekabr 2007: sıfır %) dərəcəsi ilə cəlb edilmiş üç depozit (31 dekabr 2007: dörd depozit) daxildir.

Digər banklara ödəniləcək vəsaitlərin hər bir kateqoriyasının balans dəyəri 30 iyun 2008 və 31 dekabr 2007-cı il tarixlərinə təxminən onların ədalətli dəyərinə bərabərdir. 30 iyun 2008-ci il tarixinə digər banklara ödəniləcək vəsaitlərin təxmin edilən ədalətli dəyəri 12,637 min AZN (31 dekabr 2007: 12,902 min AZN) təşkil etmişdir.

## 8 Müştəri Hesabları

| *Min Azərbaycan Manatı ilə* | **30 iyun 2008 (audit olunmamış)** | **31 dekabr 2007** |
|---|---|---|
| **Dövlət müəssisələri və ictimai təşkilatlar** | | |
| - Cari/hesablaşma hesabları | 314 | 773 |
| - Müddətli depozitlər | 300 | 2 |
| **Digər hüquqi şəxslər** | | |
| - Cari/hesablaşma hesabları | 21,700 | 15,966 |
| - Müddətli depozitlər | 20,483 | 20,475 |
| **Fiziki şəxslər** | | |
| - Cari/tələbli hesablar | 21,124 | 17,405 |
| - Müddətli depozitlər | 55,534 | 40,825 |
| Hesablanmış ödəniləcək faizlər | 802 | 669 |
| **Cəmi müştəri hesabları** | **120,257** | **96,115** |

## 8 Müştəri Hesabları (davamı)

Müştəri hesablarının iqtisadi sektorlar üzrə bölgüsü aşağıdakı kimidir:

| | 30 iyun 2008 | | 31 dekabr 2007 | |
|---|---|---|---|---|
| *Min Azərbaycan Manatı ilə* | **Məbləğ** | **%** | **Məbləğ** | **%** |
| Fiziki şəxslər | 77,487 | 64.4% | 58,898 | 61.3% |
| Maliyyə xidmətləri | 16,024 | 13.3% | 16,020 | 16.7% |
| Ticarət və xidmətlər | 20,119 | 16.7% | 14,083 | 14.7% |
| Sığorta | 3,829 | 3.2% | 4,077 | 4.2% |
| İnşaat | 971 | 0.8% | 988 | 1.0% |
| Dövlət müəssisələri | 614 | 0.5% | 775 | 0.7% |
| Nəqliyyat | 333 | 0.3% | 217 | 0.2% |
| Enerji | 271 | 0.3% | 75 | 0.02% |
| İstehsal | 152 | 0.1% | 350 | 0.4% |
| Kənd təsərrüfatı | 130 | 0.1% | 114 | 0.08% |
| Digər | 327 | 0.3% | 518 | 0.7% |
| **Cəmi müştəri hesabları** | **120,257** | **100%** | **96,115** | **100%** |

30 iyun 2008-ci il tarixinə müştəri hesablarının təxmin edilən ədalətli dəyəri 120,257 min AZN (31 dekabr 2007: 96,115 min AZN) təşkil etmişdir.

## 9 Dövlət və Beynəlxalq Maliyyə Təşkilatlarından Alınmış Borc Vəsaitləri

| *Min Azərbaycan Manatı ilə* | **30 iyun 2008 (audit olunmamış)** | **31 dekabr 2007** |
|---|---|---|
| Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondundan alınmış borc vəsaitləri | 14,248 | 12,072 |
| Avropa Yenidənqurma və İnkişaf Bankından (AYİB) borc götürülmüş vəsaitlər | 6,696 | 4,818 |
| Beynəlxalq Maliyyə Korporasiyasından (BMK) borc götürülmüş vəsaitlər | 3,003 | 2,874 |
| Asiya İnkişaf Bankından (AİB) borc götürülmüş vəsaitlər | 2,143 | 3,230 |
| Azərbaycan İpoteka Fondundan borc götürülmüş vəsaitlər | 1,856 | 852 |
| Almaniya-Azərbaycan Fondundan (AAF) borc götürülmüş vəsaitlər | 288 | 436 |
| Hesablanmış ödəniləcək faizlər | 387 | 319 |
| **Cəmi dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitləri** | **28,621** | **24,601** |

Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitlərinin hər bir kateqoriyasının balans dəyəri 30 iyun 2008 və 31 dekabr 2007-ci il tarixlərinə təxminən onların ədalətli dəyərinə bərabərdir. 30 iyun 2008-ci il tarixinə dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitlərinin təxmin edilən ədalətli dəyəri 28,511 min AZN (31 dekabr 2007: 14,563 min AZN) təşkil etmişdir.

Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondundan alınmış borc vəsaitləri istisna olmaqla, 30 iyun 2008-ci il tarixində tamamlanan altı aylıq dövr üçün bütün digər borc vəsaitləri üzrə illik bazar faiz dərəcələri 7%-10% təşkil etmişdir (31 dekabr 2007-ci il tarixində tamamlanan il: illik 7%-10%).

30 iyun 2008-ci il tarixində tamamlanan dövr ərzində Bank beynəlxalq maliyyə təşkilatları tərəfindən tətbiq edilən müəyyən xüsusi maliyyə şərtlərinə riayət etməmişdir. 18 saylı Qeydə baxın.

## 10 Nizamnamə Kapitalı

| *Səhmlərin sayı istisna olmaqla, min AZN ilə* | **Adi səhmlərin sayı (min ədədlə)** | **İmtiyazlı səhmlərin sayı (min ədədlə)** | **Adi səhmlərin nominal dəyəri** | **İmtiyazlı səhmlərin nominal dəyəri** | **Səhm mükafatı** | **Cəmi** |
|---|---|---|---|---|---|---|
| **1 yanvar 2007-cı il** | **4,200** | **300** | **8,400** | **600** | **-** | **9,000** |
| Emissiya edilmiş yeni səhmlər | 1,500 | - | 3,000 | - | - | 3,000 |
| İmtiyazlı səhmlərin adi səhmlərə çevrilməsi | 300 | (300) | 600 | (600) | - | - |
| **31 dekabr 2007-cı il** | **6,000** | **-** | **12,000** | **-** | **-** | **12,000** |
| Emissiya edilmiş yeni səhmlər | 1,500 | **-** | 3,000 | **-** | 6,860 | 9,860 |
| **30 iyun 2008-ci il** | **7,500** | **-** | **15,000** | **-** | **6,860** | **21,860** |

Bütün adi səhmlərin nominal dəyəri 2 AZN-dir (2007: bir səhmə 2 AZN). Bu səhmlər bərabər hüquqludur və hər biri bir səs hüququ verir.

30 iyun 2008-ci il tarixinə Bankın nizamnamə kapitalının strukturunda fiziki şəxslərin payı 71%, hüquqi şəxslərin payı isə 29% təşkil etmişdir (31 dekabr 2007: fiziki şəxslər 81%, hüquqi şəxslər 19%).

5 may 2008-ci il tarixində Bank ilə i arasında Səhmlərin Alqı-Satqısına dair Sazişi imzalanmışdır. Həmin Sazişə əsasən Kazimir İnvestments Limited Şirkəti 750 min ədəd adi səhm alaraq, 6,860 min AZN məbləğində səhm mükafatı ödəmişdir.

3 dekabr 2007-ci il tarixində Bankın Müşahidə Şurası hər birinin nominal dəyəri 2 AZN olan əlavə 1,500 min ədəd səhm emissiyası yolu ilə Bankın buraxılmış səhmlərinin sayının 7,500 min ədədə artırılması qərarını təsdiqləmişdir. Bundan əlavə, Kazimir İnvestments Limited Şirkətinə 750 min ədəd adi səhm emissiya edilməsi nəticəsində 6,860 min AZN məbləğində səhm mükafatı yaranmışdır. Yeni səhmlər 12 may 2008-ci il tarixində tam olaraq ödənilmişdir və Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən qeydə alınmışdır.

## 11 Faiz Gəlirləri və Xərcləri

| *Min Azərbaycan Manatı ilə* | **30 iyun 2008-ci il tarixində tamamlanan altı aylıq dövr (audit olunmamış)** | **30 iyun 2007-ci il tarixində tamamlanan altı aylıq dövr (audit olunmamış)** |
|---|---|---|
| **Faiz gəlirləri** | | |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 11,828 | 5,773 |
| Digər banklardan alınacaq vəsaitlər | 163 | 235 |
| Digər banklardakı müxbir hesablar | 110 | 85 |
| Satıla bilən borc qiymətli kağızları | 3 | 38 |
| **Cəmi faiz gəlirləri** | **12,104** | **6,131** |
| **Faiz xərcləri** | | |
| Fiziki şəxslərin müddətli depozitləri | 3,235 | 1,701 |
| Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitləri | 1,171 | 401 |
| Hüquqi şəxslərin müddətli depozitləri | 777 | 303 |
| Digər bankların müddətli depozitləri | 552 | 90 |
| Buraxılmış borc qiymətli kağızları | 188 | 14 |
| Digər bankların müxbir hesabları | 161 | 13 |
| **Cəmi faiz xərcləri** | **6,084** | **2,522** |
| **Xalis faiz gəlirləri** | **6,020** | **3,609** |

## 12 Haqq və Komissiya Gəlirləri və Xərcləri

| *Min Azərbaycan Manatı ilə* | **30 iyun 2008-ci il tarixində tamamlanan altı aylıq dövr (audit olunmamış)** | **30 iyun 2007-ci il tarixində tamamlanan altı aylıq dövr (audit olunmamış)** |
|---|---|---|
| **Haqq və komissiya gəlirləri** | | |
| - Plastik kartlarla əməliyyatlar | 880 | 658 |
| - Xarici valyuta ilə əməliyyatlar | 728 | 428 |
| - Verilmiş zəmanətlər | 705 | 135 |
| - Kassa əməliyyatları | 458 | 285 |
| - Müştəri hesablarına xidmət | 356 | 416 |
| - Hesablaşma əməliyyatları | 342 | 282 |
| **Cəmi haqq və komissiya gəlirləri** | **3,469** | **2,204** |
| **Haqq və komissiya xərcləri** | | |
| - Plastik kartlarla əməliyyatlar | 461 | 303 |
| - Müxbir hesablara xidmət | 311 | 141 |
| - Verilmiş zəmanətlər | 239 | 105 |
| - Beynəlxalq maliyyə institutları | 116 | 5 |
| - Kassa əməliyyatları | 52 | 120 |
| **Cəmi haqq və komissiya xərcləri** | **1,179** | **674** |
| **Xalis haqq və komissiya gəlirləri** | **2,290** | **1,530** |

## 13 İnzibati və Digər Əməliyyat Xərcləri

| *Min Azərbaycan Manatı ilə* | **30 iyun 2008-ci il tarixində tamamlanan altı aylıq dövr (audit olunmamış)** | **30 iyun 2007-ci il tarixində tamamlanan altı aylıq dövr (audit olunmamış)** |
|---|---|---|
| İşçilərə sərf olunan xərclər | 2,344 | 1,374 |
| Reklam və marketinq xidmətləri | 574 | 265 |
| Binalar və avadanlıqların amortizasiyası | 530 | 397 |
| İcarə xərcləri | 281 | 131 |
| Mühafizə xidmətləri | 225 | 109 |
| Binalar və avadanlıqlar üzrə digər xərclər | 175 | 86 |
| Rabitə xərcləri | 120 | 80 |
| Dəftərxana və digər xərclər | 70 | 65 |
| Ezamiyyə xərcləri | 61 | 42 |
| Kommunal xidmətlər | 46 | 25 |
| Mənfəət vergisindən başqa digər vergilər | 41 | 34 |
| Sığorta xərcləri | 36 | 48 |
| Proqram təminatı və digər qeyri-maddi aktivlərin amortizasiyası | 24 | 17 |
| Peşəkar xidmətlər | 22 | 13 |
| Digər | 166 | 92 |
| **Cəmi inzibati və digər əməliyyat xərcləri** | **4,715** | **2,778** |

## 14 Dividendlər

| | **30 iyun 2008 (audit olunmamış)** | | **31 dekabr 2007** | |
|---|---|---|---|---|
| *Min Azərbaycan Manatı ilə* | **Adi** | **İmtiyazlı** | **Adi** | **İmtiyazlı** |
| **1 yanvar tarixinə ödəniləcək dividendlər** | 39 | - | 19 | - |
| Dövr ərzində elan edilmiş dividendlər | 1,936 | - | 1,305 | 51 |
| Dövr ərzində ödənilmiş dividendlər | (1,917) | - | (1,285) | (51) |
| **Dövrün sonunda ödəniləcək dividendlər** | **58** | **-** | **39** | **-** |
| **Dövr ərzində səhm üzrə elan edilmiş dividendlər** | **0.32** | **-** | **0.28** | **0.24** |

Bütün dividendlər Azərbaycan Manatı ilə elan edilmiş və ödənilmişdir.

## 15 Seqmentlər üzrə Təhlil

Bank seqment haqqında məlumatın əsas təqdim olunma formatı kimi biznes seqmentlərindən istifadə edir.

***Biznes seqmentləri.*** Bankın fəaliyyəti iki əsas biznes seqmentləri üzərində qurulmuşdur:

- *Fərdi bank əməliyyatları* – fiziki şəxslərə bank xidmətlərinin göstərilməsi, fiziki şəxslər üçün cari hesabların açılması, depozitlərin cəlb olunması, pərakəndə investisiya vasitələrinin təqdim edilməsi, dəyərlilərin saxlanması, kredit və debet kartlarının açılması, istehlak və ipoteka kreditlərinin verilməsi daxildir; və.

- *Korporativ bank əməliyyatları* – birbaşa debet vasitələrinin təqdim edilməsi, cari hesabların açılması, depozitlərin cəlb olunması, overdraftların verilməsi, kredit və digər maliyyələşdirmə vasitələrinin təqdim edilməsi, xarici valyuta və derivativ maliyyə alətləri ilə əməliyyatlar.

Biznes seqmentləri arasında başqa əhəmiyyətli gəlir və ya xərc maddələri mövcud deyil. Seqment üzrə aktiv və passivlərə vergi istisna olmaqla, Bankın aktiv və öhdəliklərinin böyük hissəsini təşkil edən əməliyyat aktiv və passivləri daxildir.

30 iyun 2008 və 30 iyun 2007-ci il tarixlərində tamamlanan altı aylıq dövrlər üzrə Bankın hesabat verilə bilən əsas biznes seqmentləri haqqında məlumat aşağıda təqdim edilir:

| Min Azərbaycan Manatı ilə *(audit olunmamış)* | **Fərdi bank əməliyyatları** | | **Korporativ bank əməliyyatları** | | **Cəmi** | |
|---|---|---|---|---|---|---|
| | **2008** | **2007** | **2008** | **2007** | **2008** | **2007** |
| **Cəmi seqment gəlirləri** | **8,124** | **3,800** | **7,511** | **4,882** | **15,635** | **8,682** |
| **Cəmi seqment gəlirlərinə daxildir:** | | | | | | |
| - Faiz gəlirləri | 6,529 | 2,620 | 5,575 | 3,511 | 12,104 | 6,131 |
| - Haqq və komissiya gəlirləri | 1,595 | 1,170 | 1,874 | 1,352 | 3,469 | 2,522 |
| - Digər əməliyyat gəlirləri | - | 10 | 62 | 19 | 62 | 29 |
| **Cəmi gəlirlər** | **8,124** | **3,800** | **7,511** | **4,882** | **15,635** | **8,682** |
| **Seqment üzrə nəticələr** | **1,904** | **425** | **209** | **1,506** | **2,113** | **1,931** |
| Bölüşdürülməmiş xərclər | | | | | 777 | 164 |
| Assosiasiya olunmuş müəssisələrin vergidən sonrakı maliyyə nəticələrində pay | | | | | (11) | 9 |
| **Vergidən əvvəlki mənfəət** | | | | | **2,879** | **2,104** |
| Mənfəət vergisi xərci | | | | | (674) | (495) |
| **Dövr üzrə mənfəət** | | | | | **2,205** | **1,609** |
| **Digər seqment maddələri** | | | | | | |
| Kapital xərcləri | (316) | (311) | (328) | (298) | (644) | (609) |
| Amortizasiya xərcləri | (244) | (195) | (310) | (219) | (554) | (414) |
| Digər nağd olmayan gəlir və xərclər | (541) | (365) | (635) | (436) | (1,176) | (801) |

## 15 Seqmentlər üzrə Təhlil (davamı)

| Min Azərbaycan Manatı ilə | Fərdi bank əməliyyatları | | Korporativ bank əməliyyatları | | Cəmi | |
|---|---|---|---|---|---|---|
| | **30 iyun 2008 (audit olunmamış)** | **31 dekabr 2007** | **30 iyun 2008 (audit olunmamış)** | **31 dekabr 2007** | **30 iyun 2008 (audit olunmamış)** | **31 dekabr 2007** |
| **Cəmi seqment aktivləri** | **95,705** | **78,408** | **99,510** | **77,699** | **195,215** | **156,107** |
| Assosiasiya olunmuş müəssisələrə investisiya qoyuluşu | | | | | 287 | 296 |
| Cari mənfəət vergisi üzrə qabaqcadan ödəmələr | | | | | - | 375 |
| **Cəmi aktivlər** | | | | | **195,500** | **156,778** |
| **Cəmi seqment öhdəlikləri** | **76,574** | **59,243** | **89,892** | **78,916** | **166,466** | **138,159** |
| Cari və təxirə salınmış vergi öhdəlikləri | | | | | 451 | 275 |
| **Cəmi öhdəliklər** | | | | | **166,917** | **138,434** |

## 16 Maliyyə Risklərinin İdarə Edilməsi

Aşağıdakı cədvəldə 30 iyun 2008-ci il tarixinə Bankın maliyyə aktiv və passivlərinin balans dəyəri balans tarixindən gözlənilən ödəmə tarixinədək qalan müddət üzrə göstərilir.

| *Min Azərbaycan Manatı ilə* | **Tələb edilənədək və 1 aydan az** | **1-3 ay ərzində** | **3-12 ay ərzində** | **1-5 il ərzində** | **5 ildən çox** | **Cəmi** |
|---|---|---|---|---|---|---|
| **Aktivlər** | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 26,048 | - | - | - | - | 26,048 |
| ARMB-də yerləşdirilmiş məcburi ehtiyatlar | 6,083 | - | - | - | - | 6,083 |
| Digər banklardan alınacaq vəsaitlər | 59 | 915 | 491 | 2,921 | - | 4,386 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 9,042 | 4,131 | 30,539 | 91,189 | 5,682 | 140,583 |
| Satıla bilən investisiya qiymətli kağızları | 514 | - | - | - | - | 514 |
| Digər maliyyə aktivləri | 174 | - | - | 111 | - | 285 |
| **Cəmi maliyyə aktivləri** | **41,920** | **5,046** | **31,030** | **94,221** | **5,682** | **177,899** |
| **Passivlər** | | | | | | |
| Digər banklara ödəniləcək vəsaitlər | 7,825 | 4,812 | - | - | - | 12,637 |
| Müştəri hesabları | 47,578 | 5,706 | 38,779 | 28,140 | 54 | 120,257 |
| Buraxılmış borc qiymətli kağızları | - | - | 249 | 3,027 | - | 3,276 |
| Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitləri | 12,230 | - | - | 12,341 | 4,050 | 28,621 |
| Digər maliyyə passivləri | 909 | - | - | - | - | 909 |
| **Cəmi maliyyə passivləri** | **68,542** | **10,518** | **39,028** | **43,508** | **4,104** | **165,700** |
| **30 iyun 2008-ci il tarixinə xalis likvidlik çatışmazlığı** | **(26,622)** | **(5,472)** | **(7,998)** | **50,713** | **1,578** | **12,199** |
| **30 iyun 2008-ci il tarixinə məcmu likvidlik çatışmazlığı** | **(26,622)** | **(32,094)** | **(40,092)** | **10,621** | **12,199** | |

Müştərilərə verilmiş kreditlər və avanslar ilə bağlı Bankın uçot sistemində asanlıqla əldə edilə bilən daha ətraflı məlumat olmadığına görə, rəhbərlik kreditin son ödəmə tarixində əsas məbləğ üzrə qalıqları konservativ prinsip əsasında təsnifləşdirmişdir. Praktikada isə kreditin müddəti ərzində ödənişlər aylıq aparılır və faiz ödənişləri və əsas məbləğin bir hissəsinin ödənişini nəzərdə tutur. Nəticədə rəhbərlik, kredit portfeli üzrə ödənişlərin yuxarıdakı cədvəldə göstərilən ödəniş müddəti ilə müqayisədə sürətlənəcəyini proqnozlaşdırır.

Rəhbərlik keçmiş üç il ərzində müştəri hesablarının, o cümlədən müddətli depozitlərin səviyyəsini təhlil etmişdir və bu məbləğlərin Bank üçün sabit maliyyə mənbəyi yaratmasına dair sübut olduğunu hesab edir. 19 saylı Qeyddə göstərildiyi kimi, buraya əsas səhmdarlar tərəfindən yerləşdirilmiş 18 milyon AZN-dən yuxarı məbləğdə müddətli depozitlər daxildir. Bu halda likvidlik mövqeyi kreditlərin müqavilə üzrə ödəmə müddətlərini əks etdirdiyinə görə, rəhbərlik hesab edir ki, mövcud məbləğlərin böyük hissəsi Bankda qalacaqdır və yeni müştəri hesablarının açılması və müddətli depozitlərin cəlb edilməsi davam etdiriləcəkdir.

## 17 Kapitalın İdarə Edilməsi

Bankın kapitalının idarə olunmasında məqsəd (i) Azərbaycan Respublikası Milli Bankının ("ARMB") kapitalın məbləği ilə bağlı müəyyən etdiyi tələblərə riayət edilməsini, (ii) Bankın fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin və (iii) Bazel sazişinə uyğun olaraq kapitalın adekvatlığı əmsalının 8% həcmində saxlanılması üçün kifayət qədər kapital bazasının saxlanılmasını təmin etməkdir. Azərbaycan Respublikası Milli Bankının müəyyən etdiyi kapital adekvatlığı əmsallarına riayət edilməsinə Bankın Müşahidə Şurasının Sədri, Audit Komitəsinin Sədri, İdarə Heyətinin Sədri, Baş Mühasib və Daxili Audit Departamentinin Direktoru tərəfindən baxılmış və təsdiqlənmiş müvafiq hesablamalardan ibarət aylıq hesabatlar vasitəsilə nəzarət edilir. Kapitalın idarə olunmasının digər məqsədləri hər il qiymətləndirilir.

ARMB-nin kapitalın məbləği ilə bağlı mövcud tələblərinə görə banklar: (a) məcmu kapitalın minimum məbləğini 10,000 min AZN (31 dekabr 2007: 10,000 min AZN) həcmində saxlamalı; (b) məcmu kapitalın risk dərəcəsi üzrə ölçülmüş aktivlərə nisbətini ("məcmu kapitalın adekvatlığı əmsalı") minimum 12% (31 dekabr 2007: 12%) və (c) 1-ci dərəcəli kapitalın risk dərəcəsi üzrə ölçülmüş aktivlərə nisbətini ("1-ci dərəcəli kapitalın adekvatlığı əmsalı") minimum 6% (31 dekabr 2007: 6%) və ya yuxarı saxlanılmasını təmin etməlidir.

ARMB-nin məcmu kapital adekvatlığı əmsallarının hesablanması məqsədilə, 30 iyun 2008-ci il tarixinə Bankın məcmu kapitalı 29,009 min AZN (31 dekabr 2007: 18,232 min AZN) təşkil edir.

Rəhbərlik hesab edir ki, Bank 30 iyun 2008-ci il tarixində tamamlanan altı aylıq dövr ərzində yerli qanunvericiliyə uyğun hesablanmış kapitalın adekvatlığı əmsallarına riayət etmişdir. Bank eyni zamanda kredit müqavilələrində nəzərdə tutulan kapitalın minimum məbləği ilə bağlı tələblərə, o cümlədən Kapitalın Qiymətləndirilməsi və Kapital Standartları haqqında Beynəlxalq Konvergensiya (aprel 1998-ci il tarixində yenidən işlənmişdir) və "Bazel I" adlanan bazar risklərini əks etdirən Kapital haqqında Bazel Sazişinə Əlavədə (noyabr 2005-ci ildə yenidən işlənmişdir) müəyyən edilən Bazel sazişinin tələbləri əsasında hesablanmış kapitalın adekvatlığı səviyyəsinə riayət etməlidir.

## 17 Kapitalın İdarə Edilməsi (davamı)

Bankın Bazel Sazişi əsasında hesablanmış kapital strukturu aşağıdakı cədvəldə təqdim edilir:

| *Min Azərbaycan Manatı ilə* | **30 iyun 2008 (audit olunmamış)** | **31 dekabr 2007** |
|---|---|---|
| **1-ci dərəcəli kapital** | | |
| Nizamnamə kapitalı | 15,000 | 12,000 |
| Səhm mükafatı | 6,860 | - |
| Bölüşdürülməmiş mənfəət | 5,153 | 4,863 |
| Çıxılsın: Qeyri-maddi aktivlər | (290) | (275) |
| **Cəmi 1-ci dərəcəli kapital** | **26,723** | **16,588** |
| **2-ci dərəcəli kapital** | | |
| Kapital ehtiyatları | 1,544 | 801 |
| Satıla bilən investisiya qiymətli kağızları üzrə yenidən qiymətləndirmə ehtiyatı | 282 | 172 |
| Əsas vəsaitlər üzrə yenidən qiymətləndirmə ehtiyatı | 1,290 | 1,309 |
| **Cəmi 2-ci dərəcəli kapital** | **3,116** | **2,282** |
| Çıxılsın: İnvestisiya qoyuluşları | 514 | 386 |
| **Cəmi məcmu kapital** | **29,325** | **18,484** |
| Risk dərəcəsi üzrə ölçülmüş aktivlər: | | |
| Balans üzrə | 153,384 | 126,036 |
| Balansdankənar | 10,420 | 14,168 |
| **Cəmi risk dərəcəsi üzrə ölçülmüş aktivlər** | **163,804** | **140,204** |
| **Bazel əmsalı** | **17.90%** | **13.18%** |

Bankın rəhbərliyi hesab edir ki, Bank 30 iyun 2008-ci il tarixində tamamlanan altı aylıq dövr ərzində kapitalın məbləği ilə bağlı bütün kənar qurumların tələblərinə riayət etmişdir.

## 18 Təəhhüdlər və Şərti Öhdəliklər

***Məhkəmə prosedurları.*** Vaxtaşırı olaraq və adi fəaliyyət gedişində Banka qarşı irəli sürülə biləcək iddialarla əlaqədar, Bankın Rəhbərliyi öz təxminlərinə və daxili və xarici peşəkarların məsləhətlərinə əsasən hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq hazırkı yığcam aralıq maliyyə məlumatlarında zərərlərin ödənilməsi üçün hər hansı ehtiyat yaradılmamışdır.

***Vergi qanunvericiliyi.*** Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Bankın əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən bu cür qanunvericiliyə dair Rəhbərliyin şərhlərinə müvafiq vergi orqanları tərəfindən etiraz edilə bilər. Azərbaycan Respublikasında cərəyan edən son hadisələr göstərir ki, vergi orqanları qanunvericiliyi və mühakimələri şərh edərkən daha inandırıcı mövqe nümayiş etdirə bilər və keçmişdə nəzərdən keçirilməyən əməliyyat və fəaliyyətlərə yenidən baxa bilər. Bunun nəticəsində Banka qarşı böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. Vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəaliyyəti yoxlanıla bilər. Qanunvericiliklə müəyyən olunmuş xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

Rəhbərlik, Bank tərəfindən həyata keçirilən səhm emissiyası kimi kapital əməliyyatları nəticəsində Bankın qeyri-satış əməliyyatları üzrə gəlir əldə etdiyini və Azərbaycan Respublikası Vergi Məcəlləsinə uyğun olaraq bu gəlir üzrə mənfəət vergisinin hesablanmalı olub-olmadığını təhlil etmişdir. Rəhbərlik hesab edir ki, bu cür əməliyyatlar (məsələn, səhm mükafatı yaradan yeni səhmlərin emissiyası) Vergi Məcəlləsində nəzərdə tutulmur və bu səbəbdən Bankın mənfəət vergisinin hesablanmasında qeydə alınmır. Müvafiq olaraq, Bank 30 iyun 2008-ci il tarixinə cəmi 6,860 min AZN (31 dekabr 2007: sıfır) məbləğində səhm mükafatının yaranması ilə nəticələnən bu cür əməliyyatlar üzrə hər hansı mənfəət vergisi ödəməmiş və ya hesablamamışdır. Əgər Azərbaycan Respublikası Vergilər Nazirliyi Bank tərəfindən həyata keçirilən səhm emissiyası kimi kapital əməliyyatları nəticəsində yaranan qeyri-satış əməliyyatları üzrə gəlirdən (səhm mükafatı) vergi ödənilməsini açıq şəkildə tələb edərsə, Bank 30 iyun 2008-ci il tarixində tamamlanan dövr ərzində yaranmış səhm mükafatı üzrə 1,509 min AZN məbləğində vergi ödəməlidir.

Bankın rəhbərliyi hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, xarici valyuta və gömrüklə bağlı Bankın mövqeləri qorunacaqdır. Müvafiq olaraq, 30 iyun 2008-ci il tarixinə potensial vergi öhdəlikləri üzrə hər hansı ehtiyat yaradılmamışdır (31 dekabr 2007: ehtiyat yaradılmamışdır).

***Kapital məsrəfləri ilə bağlı öhdəliklər.*** 30 iyun 2008-ci il tarixinə Bankın müqavilə üzrə kapital məsrəfləri ilə bağlı əhəmiyyətli öhdəlikləri olmamışdır (31 dekabr 2007: kapital məsrəfləri ilə bağlı əhəmiyyətli öhdəliklər olmamışdır).

***Əməliyyat lizinqi ilə bağlı öhdəliklər.*** 30 iyun 2008-ci il tarixinə Bankın ləğv oluna bilməyən əməliyyat lizinqi ilə bağlı əhəmiyyətli öhdəlikləri olmamışdır (31 dekabr 2007: sıfır).

***Xüsusi şərtlərə riayət olunması.*** Bank müddətli borc öhdəlikləri üzrə müqavilələrdə nəzərdə tutulan xüsusi şərtlərə riayət etmək məcburiyyətindədir. Bu cür xüsusi şərtlərə əməl edilməməsi Bank üçün mənfi nəticələrə, o cümlədən borc vəsaitləri ilə əlaqədar xərclərin artmasına və ödəmə müddətinin dəyişməsinə gətirib çıxara bilər. Rəhbərlik hesab edir ki, Bank 30 iyun 2008-ci il tarixində tamamlanan dövr ərzində aşağıdakılar istisna olmaqla, qüvvədə olan xüsusi şərtlərə əhəmiyyətli dərəcədə riayət etmişdir.

30 iyun 2008-ci il tarixində tamamlanan dövr ərzində müəyyən vaxtlarda və 30 iyun 2008-ci il tarixində Bank bəzi borcverənlərlə bağlanmış kredit müqavilələrində nəzərdə tutulan məcmu kreditlərin ümumi kredit portfelinə nisbəti və xalis əsas vəsaitlərin və qeyri-maddi aktivlərin məcmu kapitala nisbəti kimi bəzi tələblərə əməl etməmişdir. Bununla əlaqədar, əlaqəli maliyyə təşkilatları tərəfindən hər hansı tədbir görülməmiş və ya sanksiya tətbiq edilməmişdir. 30 iyun 2008-ci il tarixinə yuxarıda qeyd olunan xüsusi şərtlərə əməl olunmamasının ümumi borc vəsaitlərinə təsiri 12,189 min AZN (31 dekabr 2007: sıfır) təşkil etmişdir. Həmin kredit müqavilələrinə əsasən xüsusi şərtlərə əməl olunmadıqda və ya digər kredit müqavilələrindəki xüsusi şərtlərə əməl olunmaması nəticəsində avtomatik olaraq qarşılıqlı defolt vəziyyəti yarandıqda, bu müqavilələr üzrə borc vəsaitləri "tələb edildikdə ödənilən" kateqoriyasına aid edilir. 30 iyun 2008-ci il tarixinə yuxarıda qeyd edilən borc məbləğləri hazırkı yığcam aralıq maliyyə məlumatlarında "tələb edildikdə ödənilən" kateqoriyasına daxil edilmişdir.

**18 Təəhhüdlər və Şərti Öhdəliklər (davamı)**

Rəhbərlik hesab edir ki, hazırkı yığcam aralıq maliyyə məlumatlarının imzalandığı tarixə Bank bu kredit müqavilələrində göstərilən xüsusi şərtlərin pozulması nəticəsində heç bir mənfi təsirə məruz qalmayacaqdır.

***Kreditlərlə bağlı öhdəliklər.*** Bu maliyyə alətlərinin əsas məqsədi lazım olduqda müştərilərə maliyyə vəsaitlərinin təqdim edilməsini təmin etməkdir. Müştərinin üçüncü tərəflər qarşısında öz öhdəliklərini yerinə yetirə bilməyəcəyi halda, Bankın ödənişlər aparması ilə bağlı mütləq öhdəlikləri əks etdirən zəmanətlər və zəmanət akkreditivləri kreditlərlə eyni kredit riski daşıyır. Müəyyən şərtlər çərçivəsində müştərilər adından nəzərdə tutulan məbləğlərdə ödənişlərin həyata keçirilməsi üzrə Bankın yazılı öhdəliklərini əks etdirən sənədli və kommersiya akkreditivlərinə müvafiq mal təchizatı və ya nağd pul depozitləri formasında təminat alınır. Həmin sənədli və kommersiya akkreditivləri birbaşa kreditləşdirmə ilə müqayisədə az risk daşıyır.

Kreditlərin təqdim edilməsi üzrə öhdəliklərə kreditlər, zəmanətlər və ya akkreditivlər formasında kreditlərin verilməsi üçün rəhbərlik tərəfindən təsdiqlənməmiş məbləğlərin istifadə edilməyən hissəsi daxildir. Kreditlərin verilməsi üzrə öhdəliklər ilə əlaqədar, Bank potensial olaraq istifadə edilməmiş öhdəliklərin ümumi məbləğinə bərabər məbləğdə zərərin yaranması riskinə məruz qalır. Lakin, kreditlərin verilməsi üzrə öhdəliklərin böyük hissəsi müştərilərin ödəmə qabiliyyəti ilə bağlı müəyyən tələblərə əməl etməsindən asılı olduğuna görə, ehtimal edilən zərərlərin məbləği istifadə edilməmiş öhdəliklərin ümumi məbləğindən azdır. Adətən uzunmüddətli öhdəliklər qısamüddətli öhdəliklər ilə müqayisədə daha yüksək kredit riskinə malik olduğu üçün, Bank kreditlərlə bağlı öhdəliklərin ödəmə müddətinə qədər qalan müddətə nəzarət edir. Dövrün sonuna kreditlərlə bağlı öhdəliklər aşağıdakı kimi olmuşdur:

| *Min Azərbaycan Manatı ilə* | **30 iyun 2008 (audit olunmamış)** | **31 dekabr 2007** |
|---|---|---|
| Ləğv edilə bilən istifadə edilməmiş kredit xətləri | 6,335 | 4,901 |
| İdxal akkreditivləri | 4,020 | 6,241 |
| Verilmiş zəmanətlər | 8,410 | 11,047 |
| **Cəmi kreditlərlə bağlı öhdəliklər** | **18,765** | **22,189** |

İstifadə edilməmiş kredit xətləri, akkreditivlər və zəmanətlər üzrə müqavilədə nəzərdə tutulan ümumi borc məbləği mütləq şəkildə pul vəsaitləri üzrə gələcək tələbləri əks etdirmir, belə ki, həmin öhdəliklərin müddəti borcalana vəsaitlər təqdim edilmədən başa çata və ya ləğv oluna bilər. 30 iyun 2008-ci il tarixinə kreditlərlə bağlı öhdəliklərin ədalətli dəyəri 502 min AZN (31 dekabr 2007: 453 min AZN) təşkil etmişdir.

**19 Əlaqəli Tərəflərlə Əməliyyatlar**

Tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar eyni bankın nəzarəti altında olsun və ya onlardan biri digərinə nəzarət edə bilsin və yaxud maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi formasına deyil, iqtisadi məzmununa diqqət yetirilir.

Bu qeyddə “Digər əlaqəli tərəflər” sütununa “*BMS 24 – Əlaqəli Tərəflərlə Əməliyyatlar”* Standartındakı əlaqəli tərəf anlayışına cavab verən tərəflər, o cümlədən Bankın baş rəhbərliyinin və ya səhmdarlarının nəzarət etdiyi və ya əhəmiyyətli dərəcədə təsir göstərdiyi müəssisələrlə aparılan əməliyyatlar daxildir.

30 iyun 2008-ci il tarixinə əlaqəli tərəflərlə aparılmış əməliyyatlar üzrə qalıqlar aşağıda göstərilir:

## 19 Əlaqəli Tərəflərlə Əməliyyatlar (davamı)

| *Min Azərbaycan Manatı ilə* | **Əsas səhmdarlar** | **Baş rəhbərlik** | **Assosiasiya olunmuş müəssisələr** | **Digər əlaqəli tərəflər** |
|---|---|---|---|---|
| Müştərilərə verilmiş kreditlər və avansların ümumi məbləği (müqavilə üzrə illik faiz dərəcəsi: 12%-26%) | 461 | 1,778 | 1,349 | - |
| Assosiasiya olunmuş müəssisələrə investisiya qoyuluşu | - | - | 300 | - |
| Cari/hesablaşma hesabları (müqavilə üzrə faiz dərəcəsi: 0%) | 403 | 1,060 | - | - |
| Müddətli depozitlər (müqavilə üzrə illik faiz dərəcəsi: 7%-14%) | 18,254 | 1,897 | - | - |
| Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitləri (müqavilə üzrə illik faiz dərəcəsi: LIBOR +4.25%) | 2,655 | - | - | - |
| İstifadə edilməmiş məzuniyyətə görə ödənişlər | - | 345 | - | - |

30 iyun 2008-ci il tarixində tamamlanan altı aylıq dövr üzrə əlaqəli tərəflərlə əməliyyatlardan yaranan gəlir və xərclər aşağıda göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | **Əsas səhmdarlar** | **Baş rəhbərlik** | **Assosiasiya olunmuş müəssisələr** | **Digər əlaqəli tərəflər** |
|---|---|---|---|---|
| Faiz gəlirləri | 25 | 98 | 175 | 282 |
| Faiz xərcləri | 1,383 | 134 | - | - |
| Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat | 9 | 37 | 27 | - |
| Haqq və komissiya gəlirləri | 1 | 4 | - | - |

30 iyun 2008-ci il tarixinə əlaqəli tərəflərlə əməliyyatlar üzrə digər hüquq və öhdəliklər aşağıda göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | **Əsas səhmdarlar** | **Baş rəhbərlik** | **Assosiasiya olunmuş müəssisələr** | **Digər əlaqəli tərəflər** |
|---|---|---|---|---|
| Dövrün sonuna Bank tərəfindən açılmış zəmanətlər | - | 6 | - | - |
| Forvard müqavilələri | 16,136 | - | - | - |
| Digər öhdəliklər | - | - | 43 | - |

30 iyun 2008-ci il tarixinə əsas səhmdarla Bank arasında bağlanmış forvard müqavilələri 2008-ci ilin iyul ayında sabit məzənnə ilə 16,136 min AZN-in satışı və 12,000 ABŞ dolları və 5,000 min Avronun alışı ilə bağlı olmuşdur. Hesabat tarixindən sonrakı dövr ərzində bu müqavilələr ödəmə tarixində yerinə yetirilmişdir. Bundan əlavə, 30 iyun 2008-ci il tarixində tamamlanan dövr ərzində əsas səhmdarla Bank arasında digər forvard müqavilələri imzalanmışdır. 30 iyun 2008-ci il tarixində tamamlanan dövr ərzində aparılmış bu əməliyyatlar nəticəsində Bankın 77 min AZN məbləğində zərəri olmuşdur.

## 19 Əlaqəli Tərəflərlə Əməliyyatlar (davamı)

31 dekabr 2007-ci il tarixinə əlaqəli tərəflərlə əməliyyatlar üzrə qalıqlar aşağıdakı kimi olmuşdur:

| *Min Azərbaycan Manatı ilə* | **Əsas səhmdarlar** | **Baş rəhbərlik** | **Assosiasiya olunmuş müəssisələr** | **Digər əlaqəli tərəflər** |
|---|---|---|---|---|
| Müştərilərə verilmiş kreditlər və avansların ümumi məbləği (müqavilə üzrə illik faiz dərəcəsi: 12%-26%) | 102 | 730 | 816 | 2,147 |
| Assosiasiya olunmuş müəssisələrə investisiya qoyuluşu | - | - | 294 | - |
| Cari/hesablaşma hesabları (müqavilə üzrə faiz dərəcəsi: 0%) | 2,606 | 1,064 | - | 12 |
| Müddətli depozitlər (müqavilə üzrə illik faiz dərəcəsi: 7%-14%) | 9,442 | 518 | - | 454 |
| Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitləri (müqavilə üzrə illik faiz dərəcəsi: LIBOR +4.25%) | 2,874 | - | - | - |
| İstifadə edilməmiş məzuniyyətə görə ödənişlər | - | 345 | - | - |

30 iyun 2007-ci il tarixində tamamlanan dövr üzrə əlaqəli tərəflərlə əməliyyatlardan yaranan gəlir və xərclər aşağıda göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | **Əsas səhmdarlar** | **Baş rəhbərlik** | **Assosiasiya olunmuş müəssisələr** | **Digər əlaqəli tərəflər** |
|---|---|---|---|---|
| Faiz gəlirləri | 85 | 14 | - | - |
| Faiz xərcləri | 298 | 1 | - | - |
| Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat | - | 7 | 7 | - |
| Haqq və komissiya gəlirləri | - | - | 5 | - |
| Assosiasiya olunmuş müəssisələrin maliyyə nəticələrində pay | - | - | 5 | - |

31 dekabr 2007-ci il tarixinə əlaqəli tərəflərlə əməliyyatlar üzrə digər hüquq və öhdəliklər aşağıda göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | **Əsas səhmdarlar** | **Baş rəhbərlik** | **Assosiasiya olunmuş müəssisələr** | **Digər əlaqəli tərəflər** |
|---|---|---|---|---|
| İlin sonuna Bank tərəfindən açılmış zəmanətlər | - | - | - | 1,089 |
| Forvard müqavilələri | 14,908 | - | - | - |
| Digər öhdəliklər | - | - | 353 | - |

Bankın əsas səhmdarı cənab Çingiz Əsədullayevdir (2007: cənab Çingiz Əsədullayev).

## 19 Əlaqəli Tərəflərlə Əməliyyatlar (davamı)

Baş rəhbərliyə ödənişlər haqqında məlumat aşağıda təqdim edilir:

| *Min Azərbaycan Manatı ilə* | **30 iyun 2008-ci il tarixində tamamlanan altı aylıq dövr (audit olunmamış)** | **30 iyun 2007-ci il tarixində tamamlanan altı aylıq dövr (audit olunmamış)** |
|---|---|---|
| *Qısamüddətli ödənişlər:* | | |
| - Əmək haqqı | 221 | 129 |
| - Qısamüddətli mükafatlar | 76 | 105 |
| **Cəmi** | **297** | **234** |

## 20 Hesabat Tarixindən Sonra Baş Vermiş Hadisələr

14 noyabr 2008-ci il tarixində “Bankların, sığorta və təkrarsığorta şirkətlərinin kapitallaşma səviyyəsinin artırılmasının stimullaşdırılması haqqında" yeni qanun tətbiq olunmuşdur. Bu qanuna əsasən 2009-cu il yanvarın 1-dən üç vergi ili müddətinə banklar, sığorta və təkrarsığorta şirkətləri üçün mənfəət vergisi dərəcəsi 0%-ə endirilmişdir. Banklar, sığorta və təkrarsığorta şirkətləri mənfəəti bölüşdürmədikləri təqdirdə bu qanunun müddəalarından yararlana biləcəklər. Hal-hazırda rəhbərlik bu qanunun qəbul olunmasının Banka təsirini nəzərdən keçirir.

10 sentyabr 2008-ci il tarixində Bank ilə Nikoil Bank arasında 3,500 min ABŞ dolları və 500 min ABŞ dolları məbləğində iki yeni müddətli depozit müqaviləsi imzalanmışdır. Bu depozitlərin ödəmə müddətləri müvafiq olaraq 10 noyabr 2008 və 10 mart 2009-cu il tarixlərində başa çatır. Ödəmə müddəti noyabr ayında başa çatmış depozit hesabat tarixindən sonrakı dövr ərzində geri qaytarılmışdır.

9 iyul 2008 və 12 avqust 2008-ci il tarixlərində Bank ilə Kazimir İnvestment Limited Şirkəti arasında 6,000 min AZN və 2,000 AZN məbləğində iki yeni müddətli depozit müqaviləsi imzalanmışdır. Bu depozitlərin ödəmə müddəti müvafiq olaraq 9 yanvar 2009 və 12 fevral 2010-cu il tarixlərində başa çatır.